## KAFTAR OYUNU

Kaftar oyunu Kəlbəcərin, əsasən, Oruclu və Ağcakənd kəndlərində oynanılırdı. Ağır ritmli havanın müşayəti ilə bayramlarda oynanılardı. Bu oyunu Oruclu kəndində ən çox Bəkir, bir də Cabbar kişi oynuyardı. Oyunun mənası vəhşi bir kaftarın insanı yeməsidi. Bir nəfəri kaftar görkəmində bəziyirdilər. Bir çömçəni çənəsinə bağlıyırdılar, birini yuxarı. Adam ağzını açıb yumanda çömçələr bir-birinə dəyib şakqıldayırdı. Ona da geyim geyindirirdilər. Ağız nahiyyəsini timsah ağzı kimi düzəldirdilər. O qədər qorxunc olurdu ki, qadınlar, uşaqlar onu görəndə qorxardılar. Oyunun məzmunu budur ki, bir igidin kaftarı öldürməyə gücü çatmır, ona hiyləynən qalib gəlir. Özünü ölülüyə vurur. Əyninə kəfən geyinir, gəlir uzanır kaftarın yolunun üstündə. Kaftar gəlir, bunu dik söyküyür divara, özü çəkilir geri. Ağzın şakqıldada-şakqıldada gəlir ki, bunu kəlləynən vura öldürə. Kəlləynən vurub öldürmək istəyəndə – bu ölü də canlı adamdı axı, özünü ölülüyə vurub, – böyrü üstə yıxılır, kaftarın başı divara dəyir. Kaftar bir də gedir, bir də qayıdır. Oyun kaftarı öldürənə qədər davam eliyərdi. Kaftar o qədər başını divara çırpırdı ki, ölürdü. Onnan sonra kəfən geyinən adam çıxırdı, ayağını qoyurdu onun üstünə. Hamı bayram eliyirdi ki, kaftar öldü.

*Söylədi: Süleymanov Süleyman Mehralı oğlu, Kəlbəcər rayonu, Ağcakənd kəndi / Qarabağ: folklor da bir tarixdir, VIII kitab (Kəlbəcər rayonundan toplanmış folklor örnəkləri). Bakı, "Elm və təhsil", 2014.*